**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

# MƏLUMAT MƏKTUBU

**Hörmətli həmkarlar!**

Sizi 26–27 may 2022-ci il tarixlərində Sumqayıt Dövlət Universiteti və Yıldız Texniki Universitetinin birgə təşkilatçılığı ilə keçiriləcək **"Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri"** mövzusunda Beynəlxalq elmi konfransda iştirak etməyə dəvət edirik.

**Konfransın bölmələri:**

1. Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıqda rəqəmsal transformasiya və rəqəmsal liderlik
2. Universitet-sənaye əməkdaşlığında texnoparkların rolu: Azərbaycan-Türkiyə texnopark birgə müəssisələri
3. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, İpək yolu iqtisadi kəməri və digər nəqliyyat layihələrinin Azərbaycan, Türkiyə və region ölkələrinin sosial-iqtisadi inkişafında rolu
4. Türk Dövlətləri Təşkilatı çərçivəsində regional iqtisadi əməkdaşlıq
5. Azərbaycan və Türkiyə arasında ticarət və iqtisadi əməkdaşlıq

**Konfransın işçi dilləri:** azərbaycan, türk, rus, ingilis.

**Konfransın formatı:** əyani və ya onlayn (əlavə olaraq məlumat veriləcəkdir).

**Konfrans materiallarının tərtibinə qoyulan tələblər:**

| | |
|---|---|
| Kağızın ölçüsü | – *A4* |
| Boş sahə | – *hər tərəfdən 2 sm* |
| Şrift | – *Times New Roman* |
| Düstur | – *Microsoft Equation* |
| Şrift ölçüsü | – *12 pt* |
| Sətirarası interval | – *1,15 sm* |
| Abzas | – *1,25 sm* |
| Məqalənin adı | – *ortadan, böyük hərflərlə, qalın şriftlə* |
| Müəllifin adı, soyadı, atasının adı | – *ortadan, qalın şriftlə* |
| İş yeri, şəhər, ölkə | – *ortadan, kursivlə* |
| E-poçt ünvanı | – *ortadan, kursivlə* |
| Açar sözlər (5–7 söz) | – *Azərbaycan,türk, ingilis və rus dillərində* |
| Xülasə (60–80 söz) | – *məqalənin yazıldığı dildən başqa iki dildə* |
| Həcmi | – *5 səhifəyə qədər* |
| Ədəbiyyata istinadlar | – *kvadrat mötərizədə* |
| Ədəbiyyat siyahısı | – *əlifba sırası ilə* |

Konfransın materialları **Plagiat.pl** şirkətinə məxsus **StrikePlagiarism.com** antiplagiat sistemində yoxlanıldıqdan sonra **"SDU.Konfrans materialları"** toplusunda dərc olunaraq, https://www.ssu-conferenceproceedings.edu.az, https://www.sdu.edu.az saytlarında və **eLibrary.ru** məlumat bazasında yerləşdiriləcəkdir (beynəlxalq seriya nömrələri: **İSSN 2708-955X print, İSSN 2709-6033 on-line**).

Materiallar **01 may 2022-ci il** tarixinədək **sduiqtisadiyyat@gmail.com** elektron poçtuna və ya əyani olaraq elektron daşıyıcılarda və çap olunmuş formada aşağıdakı ünvanda qəbul olunur: *AZ5008, Sumqayıt şəhəri, 43-cü məhəllə, Bakı küçəsi 1, Sumqayıt Dövlət Universiteti (I tədris korpusu), İqtisadiyyat və idarəetmə fakültəsi, Biznesin təşkili və menecment kafedrası (otaq 403 ).*

**Bir müəllifdən yalnız bir məruzənin tezisi qəbul olunur.**

**Təşkilat komitəsi tezislərin konfransın proqramına daxil edilməsi hüququnu özündə saxlayır.**

**Qəbul olunmayan tezislər geri qaytarılmır.**

**Əlaqələndirici şəxs**: dos. Qalib Hüseynov

**Əlaqə nömrələri**: (+99418) 64215 06 (1-09), (+99450) 752 22 91

***Təşkilat komitəsi***